Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# "Ötən 20 il ərzində Azərbaycanda 500 dini icma meydana gəlib"

Azərbaycanın dünyaya nümunə olan tolernat ölkə olması ilə bağlı ABŞ-ın və dünyanın məşhur telekanallarından olan CNBC televiziyasının saytında Azərbaycandakı tolerantlıq haqqında dərc edilən material beynəlxalq aləmdə Azərbaycan haqqında müsbət fikirlərin formalaşmasına səbəb olub. Bir neçə il bundan əvvəl Londonda, Böyük Britaniya parlamentində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü, bu ölkədə fəaliyyət göstərən İngiltərə-Azərbaycan Cəmiyyətinin və "Odlar Yurdu" qurumunun təşkilatçılığı ilə "Avropa multikulturalizminin perspektivləri: Dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli" mövzusunda keçirilən konfrans CNBC telekanalı tərəfindən rəğbətlə qarşılanıb. Telekanalın internet saytında konfransla bağlı yerləşdirilən məqalədə deyilir ki, Londonda keçirilən konfrans Azərbaycanda həqiqətən də, Avropaya nümunə ola biləcək tolerant cəmiyyət qurulduğunu göstərir. Məqalədə Azərbaycanda bir çox dinlərin nümayəndələri mehriban şəraitdə yaşadıqları və onlara dini ayinləri yerinə yetirmək üçün nəinki maneə olunmadığı, əksinə, kömək göstərildiyi vurğulanır. Məqalə müəllifi yazır ki, konfransda iştirak edən Böyük Britaniyanın nüfuzlu siyasi və din xadimləri də Azərbaycanda dini dözümlülük sahəsində böyük uğurlar əldə edildiyini məhəbbətlə danışıblar. Yazıda Azərbaycanda əhalinin 95 faizinin müsəlman olmasına baxmayaraq, burada yaşayan yəhudilər də bu ölkəni özlərinin doğma vətəni hesab etdikləri də bildirilir.

Azərbaycanda müsəlmanlarla yanaşı katoliklər, provoslavlar, protestantlar və başqa dinlərin nümayəndələri mehriban şəraitdə yaşamalarına və əməkdaşlıq etmələrinə də məqalədə diqqət cəlb edilib. Məqalədə deyilir: "Bakıda 3 sinaqoqla yanaşı yəhudi icması, yəhudi mədəniyyət mərkəzi də fəaliyyət göstərir. Sovet İttifaqı dağıldıqdan sonra buradakı sinaqoqlar hökumətin vəsaiti hesabına bərpa edilmişdir ki, bunun da dünyada analoqu yoxdur. Sovet İttifaqının tərkibində 70 il repressiyaya məruz qalmasına baxmayaraq, Azərbaycan xalqı başqa dinlərə qarşı tolerant münasibətini qoruyub saxlamışdır. Təsadüfi deyildir ki, cəmi 9 milyon əhalisi olan Azərbaycanda ötən 20 il ərzində 500 müxtəlif dini icma meydana gəlmişdir".

CNBC televiziyasının saytındakı yazıda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın konfransdakı çıxışına da geniş yeri verilib. Bununla bağlı məqalədə Leyla Əliyevanın dediklərindən sitat da verilib: "Bu gün Azərbaycan bütün dünyaya göstərir ki, müsəlmanlar yəhudilər və xristianlar birlikdə sülh və əmin-amanlıq şəraitində yaşaya bilərlər. Biz buna nail olmuşuq və bununla fəxr edirik".

Yazıda o da vurğulanır ki, Sovet İttifaqının dağılmasından sonra Azərbaycanı tərk edən yəhudilər artıq geri dönürlər: "Bu da ölkənin sosial-iqtisadi inkişafı ilə əlaqədardır. Azərbaycanda istər dövlət, istərsə də qeyri-dövlət idarə və müəssisələrində müxtəlif dinlərə mənsub olanlar çalışırlar və onlara qarşı dini ayrı-seçkilik halları müşahidə edilmir. Onlar özlərini tam təhlükəsizlikdə hiss edirlər"

**Tolerantlıq təbliğ edilir...**

Azərbaycandakı tolerantlığın dünya ölklərinə model kimi təbliğ edilməsi ilə bağlı son illər bir-sıra işlər həyata keçirilməkdədir. Bu müstəvidə də Qərb oxucusunu ölkəmizdəki tolerantlıq ilə daha yaxından tanış etmək məqsədi ilə Azərbaycanın Amerika Birləşmiş Ştatlarının Los Anceles şəhərindəki Baş Konsulluğunun təşəbbüsü ilə ABŞ-ın "Jewish Journal" yəhudi qəzetində Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayevin daimi bloqu yaradılıb. Bloq "Azərbaycanın Dağ Yəhudiləri" adlanır. Bloqda ölkəmizdə yəhudilərin həyatını əks etdirən, eləcə də, digər mövzular ətrafında məqalələrin dərc edilməkdədir. Bu məqalələrdə Azərbaycan haqqında, xüsusilə də ölkəmizin qədim tolerantlıq ənənələri və bu ənənələrin daha gücləndirilməsi üçün respublikamızda görülən işlər barədə ABŞ ictimaiyyəti məlumatlandırılır. Bloqdakı ilk məqalə - "28 May" adı ilə dərc edilib. Yazıda müəllif rəhbərlik etdiyi ABŞ-da yaşayan soydaşlarına və o cümlədən ingilisdilli oxuculara ölkəmizdəki tolerantlıq haqqında geniş məlumat verib. O qeyd edib ki, Azərbaycandakı tolerantlıq dünyaya nümunə olan modeldir və bu, sivilizasyalararası dialoqa verilən ən böyük başəri töhfədir.

M.Yevdayev eyni zamanda Los Ancelesin yəhudi icması tərəfindən Azərbaycan Dağ Yəhudiləri İcmasına Tövratın hədiyyə edilməsini işıqlandıraraq, bunu tarixi hadisə hesab edərək bu amilin Azərbaycanda da məmnunluqla qarşılandığını vurğulayıb. Azərbaycan dağ yəhudiləri və Los Anceles yəhudiləri arasında güclü əlaqələrin qurulduğunu və bunun Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ölkəmizin tolerantlıq modelinin dünyaya bariz nümayişi olduğunu vurğulayan müəllif yazır: "Azərbaycandakı dinlərarası harmoniyanın bəşəri inkişafın gələcəyi üçün uyğun bir model olduğunu bütün dünya bilməlidir və bu model təbliğ edilməlidir. Azərbaycanda yəhudilər əsrlərdən bəri hər hansı təqibə və ya ayrı-seçkiliyə məruz qalmadan azərbaycanlılarla tam qarşılıqlı anlaşma, sülh və həmrəylik şəraitində yaşayırlar".

Yevdayevin bu məqaləsi ABŞ-ın ingilisdilli oxucuları arasında da böyük məmənunluqla qarşılanıb. Məqaləyə yazılan çoxsaylı şərhlər bunu deməyə imkan verir. Yeri gəlmişkən onu da xatırladaq ki, "Jewish Journal" ABŞ-da internet vasitəsi ilə ən çox oxunan yəhudi qəzetidir. Bu qəzeti hər ay 5 milyondan yuxarı insan oxuyur .

